**KƏMALƏ RUİNTƏN**
***Bakı Slavyan Universitetinin dissertantı***

# RUSİYA-GÜRCÜSTAN MÜHARİBƏSİ İRANLI MÜTƏXƏSSİSLƏRİN GÖZÜ İLƏ VƏ İRAN KİV-LƏRİNDƏ

«Soyuq müharibə» zamanı iki hərbi blok NATO və Varşava müqaviləsi təşkilatının toqquşma nöqtəsində yerləşən Qafqaz regionunun geopolitik və geoiqtisadi əhəmiyyəti keçən əsrin sonlarında dünya siyasi sistemində baş verən dəyişikliklərlə əlaqədar olaraq daha da artdı. Regionda müxtəlif dövlətlərin maraqları toqquşdu. Rusiya, ABŞ, Avropa ölkələri, NATO və s.-nin regiondan mənfəət götürmə meylləri və onların mənafelərindən irəli gələn təzadlar Qafqazda siyasi oyunlara yol açdı. Bu da regionda vəziyyətin qeyri-stabil olmasına, bəzən isə daha da gərginləşməsinə gətirib çıxartdı. ABŞ-ın mənafeyi və Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyinə dair narahatlığı, o cümlədən hər iki dövlətin öz nüfuz dairəsini genişləndirmək və hegemonluq səyləri 2008-ci ilin yayında Qafqazda vəziyyətin böhran həddinə çatması ilə nəticələndi. Rusiya 08-12 avqust 2008-ci il tarixdə Gürcüstan ilə arasında Cənubi Osetiya üstündə baş vermiş «beş günlük» müharibənin də məhz öz cənub-qərb sərhədləri tərəfindən gələn təhlükənin qarşısını almaq və öz vətəndaşlarını qorumaq məqsədi ilə baş verdiyini bildirsə də qarşıdurma, əslində maraqlı dövlətlərin mənafelərinin bir sıra məsələlərdə uyğun gəlməməsi nəticəsində meydana çıxdı.

Cənubi Qafqazı öz milli təhlükəsizliyinin bir hissəsi olaraq görən Rusiya Federasiyası region ölkələrinin ABŞ, Avropa İttifaqı və NATO ilə əməkdaşlığından narazıdır. Xüsusilə də Rusiya Gürcüstandan onun hərbi bazalarının çıxarılması müqabilində Amerika və NATO ilə yaxınlaşmasından və NATO-nun RF-nin sərhədlərinədək genişlənməsindən narahatdır və bunu özünün cənub-qərb sərhədləri tərəfindən gələn təhlükə kimi qiymətləndirir. Qafqaz və Mərkəzi Asiya üzrə iranlı tədqiqatçı doktor Bəhram Əmirəhmədiyan Rusiyanın Gürcüstanla Şimali Qafqazın böhranlı əraziləri vasitəsilə həmsərhəd olduğu üçün strateji cəhətdən əhəmiyyətli olduğunu qeyd edir və göstərir ki: «Rusiyanın cənub-qərb sərhədlərində yerləşən qonşusu Gürcüstan ilə arasında düşmənçiliyin artması onun milli təhlükəsizliyinə hədənin artmasına səbəb olur. Buna görə də Rusiya dəfələrlə Gürcüstana xəbərdarlıq edib ki, mehriban qonşuluq münasibətlərinə riayət etsin, NATO-nun və xarici ölkələrin hərbi qüvvələrinin regiondan RF-nin nüfuz dairəsinə daxil olmasının qarşısını alsın. Lakin Gürcüstan heç bir şəkildə buna riayət etməyib, hətta Rusiya sərhədlərinə birbaşa təhlükə yaranmasına səbəb olub» (4). Adı çəkilən müəllif digər məqaləsində yazır ki, Gürcüstanın Qərb ilə yaxınlığı Rusiyanın maraqlarına təhlükə yaratdı və gürcülərin «səhv» strategiyası rusları sərhəddə müharibə ilə üz-üzə qoydu. Rusiya Qafqaza Gürcüstanla olan öz cənub sərhədlərinin mühafizəsi və öz milli təhlükəsizliyini təmin etmək baxımından yanaşır. Qərbin isə Qafqaza can atmaqda məqsədi Rusiyanı təcrid etmək, ətraf regionları və respublikaları, xüsusilə də Şimali Qafqazı ayırmaq, nəhayət Rusiyanı parçalamaqdır (6). Lakin Rusiya heç bir zaman Qafqazdakı mövqeyini əldən vermək və siyasi meydanı nə Amerika, nə də digər güc mərkəzinə çevrilə biləcək dövlət, yaxud qurum üçün tərk etmək niyyətində olmayıb. İran İslam Respublikası da özünün nüvə məsələsi ilə bağlı olaraq Gürcüstan ərazisindən ona qarşı istifadə edilə biləcəyindən və bir sıra digər məsələlərlə bağlı narahat olduğu üçün onun Qərbə meylinin və NATO-ya qoşulmasının əleyhinədir.

İİR, ümumiyyətlə, Qafqaz regionunda baş verən hadisələrin onun maraqlarına zidd olacağından, həmçinin ölkənin daxili vəziyyətinə birbaşa təsir göstərəcəyindən na-

rahatdır və regionu öz təhlükəsizliyinə hədə olaraq görür. Bununla yanaşı, Rusiyanın dünya siyasətində mövqeyində baş verə biləcək hər hansı dəyişikliyin İİR-in mövqeyinə də təsiri qaçılmazdır. Göstərilən və bir sıra digər səbəblərlə əlaqədar olaraq İran İslam Respublikası Qafqaz regionunu, o cümlədən Rusiyanı daim diqqət mərkəzində saxlayır və regionda baş verən ictimai-siyasi prolsesləri özünün kütləvi informasiya vasitələrində mütəmadi olaraq işıqlandırır. Bununla yanaşı, İranda Qafqaz və Mərkəzi Asiya regionlarında, həmçinin Rusiyada baş verən prosesləri araşdırıb tədqiq edən mərkəzlər fəaliyyət göstərir və iranlı mütəxəssislər həmin hadisələri təhlil edir, onun baş vermə səbəblərini, nəticələrini və təsirini araşdırırlar.

2008-ci il 08-12 avqust tarixində Rusiya və Gürcüstan arasında baş vermiş «beşgünlük müharibə» də İran KİV-lərinin və mütəxəssislərinin diqqətindən kənarda qalmamışdır. Lakin KİV-lər baş verənləri işıqlandırarkən ilk növbədə Fransanın və Rusiyanın xəbər agentliklərinin məlumatlarına əsaslanırdılar, nadir hallarda isə xəbərin Gürcüstan mənbələrindən alındığı göstərilirdi. Hadisələrə birbaşa münasibət bildirilməsə də müharibənin səbəbləri araşdırılırdı.

B.Əmirəhmədiyan müharibənin köklərini və səbəblərini araşdıraraq yazır: «Ukraynanın və Gürcüstanın Rusiya əleyhinə cəbhədə qərar tutması və hər iki ölkənin GUAM çərçivəsində Rusiya əleyhinə fəaliyyəti Moskvanı qıcıqlandırır və onu cavab reaksiyasına vadar edirdi. Qərb ölkələrinin və NATO-nun Rusiyanın cənub-qərb sərhədlərinə doğru genişlənməsi səbəbindən və Gürcüstanın NATO-ya qoşulmaq istəyini elan etməsi iki ölkə arasındakı ziddiyyəti daha da gücləndirdi» (5). Rusiyanın hər iki ölkəyə ilk əks reaksiyası onların NATO-ya qoşulmalarının qarşısını almaq oldu. Müəllif qeyd edir ki, Rusiya Avropada əsas və daha çox enerji idxal edən Fransanı və Almaniyanı NATO-nun 2008-ci ilin bahar iclasında Ukraynanın və Gürcüstanın təşkilata qoşulmasının əleyhinə çıxmağa vadar etməyi bacardı (5). Bundan başqa, Çexiyada və Polşada raketdən müdafiə elementlərinin quraşdırılmasına etiraz edən Rusiya həmin ölkələri raket hücumu ilə hədələdi. Lakin bu arada Gürcüstan raketdən müdafiə sistemlərinə ev sahibliyinə hazır olduğunu bildirdi (5).

Müharibə başlandığı gün **«Farsnews»** informasiya agentliyi məlumat verərək bildirdi ki, 70 min nəfərə çatan əhalisinin çoxunun Rusiya pasportu olan Cənubi Osetiya öz istiqlaliyyətini Gürcüstan ilə bərabər «elan edib» və Moskva onu himayə edir, lakin beynəlxalq ictimaiyyət bu məntəqənin Gürcüstandan ayrılması ilə razılaşmır (9). Müharibənin isə Gürcüstan Respublikasının prezidentinin 07 avqust 2008-ci il tarixdə birtərəfli atəşkəs və Cənubi Osetiya rəhbərləri ilə danışıqlara hazırlaşmasına dair açıqlamalarının əksinə olaraq Tiflisin həmin respublika əleyhinə hərbi əməliyyatların başladığını elan etməsi ilə başlandığı göstərilir (8). B.Əmirəhmədiyanın «İran» qəzetində çıxan məqaləsində müharibənin gedişini şərh edərək yazır: «Müharibə Gürcüstanın 08 avqust 2008-ci il tarixdə Tsxinvalidə yerləşən sülhü mühafizə dəstəsinin mövqelərinə gözlənilməz hücumu ilə başlayıb. Müharibə bir tərəfdən Gürcüstan və Cənubi Osetiya arasında, digər tərəfdən isə sülhü mühafizə edən rus əsgərlər tərəfindən baş verdi. Gürcüstanın bu əməliyyatları Cənubi Osetiyanın zəif vəziyyətinə ağır zərbə oldu, bu da Rusiyanın müdaxiləsinə gətirib çıxardı. Gürcülər hüsumun əvvəlindən sülhü mühafizə qüvvələrinin və osetinlərin tələf olmasına və şəhərin dağılmasına nail oldular, Tsxinvalini tutdular. Növbəti gün Rusiyanın 58-ci ordusu sülh mühafizəçilərinə kömək məqsədilə regiona daxil oldu. Rusiyanın Cənubi Osetiyaya hüsumu və artilleriyadan və tanklardan şiddətli atəş açması ilə gürcü əsgərlərinin müqavimətini qırdılar və gürcülər tələfat verərək geri çəkilməyə məcbur oldular. Tsxinvali şəhəri ruslar tərəfindən tutuldu. Amma Rusiya Gürcüstana təcavüz etmək məqsədinin olmadığını və bu əməliyyatın yalnız rus sülh mühafizəçilərinin və Cənubi Osetiyada yaşayan rus əhaliyə kömək üçün baş

verdiyini bildirdi. Rusiyanın Cənubi Osetiyada cəld əməliyyatı gürcülər üçün gözlənilməz oldu. Gürcüstan ordusu heç təsəvvür etmirdi ki, Rusiya belə güclü reaksiya göstərə bilər. Bu məsələ Gürcüstanın Rusiyaya qarşı hücumunu düzgün hesablamadığını göstərir» (4). Məqalədə qeyd edilir: «E.Şeverdnadzenin hakimiyyətdə olduğu son illərdə Gürcüstan ilə ABŞ arasında başlanan hərbi əməkdaşlıq, o cümlədən Avropa və Qərb institutları ilə əməkdaşlıq Saakaşvilinin hakimiyyətə gəlməsi ilə daha da inkişaf etdi. Amerika ilə Ukrayna tərəfindən Gürcüstan ordusunun təchiz edilməsi ona Rusiyaya qarşı dura biləcəyinə inam yaratdı. Lakin Gürcüstanın strateji balansı Rusiya ilə müqayisə belə edilə bilməz. Rusiya hərbi-strateji məsələlərdə özünü ABŞ ilə rəqib görür, necə ki, Gürcüstanı buna inandırdı» (4).

B.Əmirəhmədiyan qeyd edir: «Gürcüstanın vəziyyəti dolaşıqdan çıxarmaq və dünya birliyinin diqqətini özünün ərazi bütövlüyünə və Rusiyanın onun coğrafi ərazilərində Gürcüstan hökumətinin əleyhinə törətdiyi narahatlıqlara cəlb etmək məqsədilə bu siyasi intihara əl atdığı ehtimal olunur» (5). Doktor Seyfəl Rza Şəhabi isə Vaşinqton və Tiflis arasında əvvəldən gizli razılığın olduğunu göstərir və bildirir ki: «Gürcüstanın hücumunun ardınca iki müxtəlif vəziyyətdən birinin yaranması labüd idi: I halda – Rusiya buna güclü reaksiya vermir ki, bu da Gürcüstanın və Qərbin xeyrinədir; II halda – Rusiya güclü reaksiya verir. Bu vaxt Amerika Gürcüstanın NATO-ya üzvlüyünə etiraz edən üzv dövlətlər arasında onun təşkilata qoşulmasını tezləşdirmək üçün geniş təbliğat aparır. Digər tərəfdən Amerika Rusiyanın güdrətinin böyüklüyünü göstərməklə və bu ölkəni Avropanın gələcəyi üçün təhlükə kimi qələmə verməklə Polşada raketdən müdafiə sistemlərinin yerləşdirilməsini bu dövlətin xalqına və hökumətinə sırıyır» (11). «Ettelaat-e beynəlmeləli» qəzetinin Nyu-Yorkda fars dilində dərc edilən nüsxəsində Doktor Məhəmməd Əli Möhtədi də Cənubi Osetiyada baş verən hadisələrin arxasında Amerikanın və Qərb dövlətlərinin durduğunu göstərir. O, yazır: «bəzi müşahidəçilərin fikrincə məhz Amerika D.Medvedyevin prezidentliyi dövründə Polşada raket əleyhinə müdafiə elementlərinin quraşdırılması məsələsindən sonra və Qafqaz regionunda Rusiyanın reaksiyasını yoxlamaq məqsədilə Saakaşvilini bu addımı atmağa vadar edib. Digərləri inanırlar ki, Saakaşvili bu addımı atmamışdan əvvəl öz hərəkətlərini düzgün ölçüb-biçməyib və Qərbin dəstəyinə arxalanıb. Belə hesab edib ki, Qərb Rusiyanın qarşısına silahlı qüvvələr çıxaracaq. Lakin Saakaşvilinin ümidləri puça çıxdı və Qərb belə bir addım atmadı. Göstərdiyi yeganə köməklik isə ondan ibarət oldu ki, İraqda olan iki min gürcü desantı Gürcüstana – Abxaziya ətrafına qaytardı. Bu da Rusiyanın baş naziri V.Putinin tənqidinə tuş gəldi» (20). «Ettelaat» qəzeti yazır ki: Rusiyanın baş naziri V.Putin CNN televiziyasına müsahibəsində bu müharibənin vəziyyəti qarışdırmaq məqsədilə Amerikada hazırlandığını bildirib. Bunun ardınca Amerika mətbuatı müharibənin ssenarisinin Respublikaçılar partiyasının namizədi Mak Keynə kömək məqsədilə Buş hökuməti tərəfindən planlaşdırıldığını göstərib. Məlumata əsasən C.Buş hakimiyyətinin son illərində həmlə, yaxud kiçik miqyaslı müharibə nəzərdə tutulurdu ki, onun nəticəsində hakim partiya (Respublikaçılar) seçkilərdə qələbəni qazansın (13). Məqalədə həmin planın ilk əvvəl İran üçün nəzərdə tutulduğuna işarə edilərək göstərilir: «seçkilərdə qələbə qazanmaq üçün ABŞ-ın siyasi dairələrində və siyasi xadimlər tərəfindən İranın enerji və atom müəssisələrinə həmlə planlaşdırılmış və təklif edilmişdi» (13).

Müharibənin nəticələrini 11 sentyabr hadisələri qədər təsirli hesab edən B.Əmirəhmədiyan «Etimad» qəzetində çıxan məqaləsində yazır: «Rusiyanın Qərblə qarşıdurması nəhayət ki, özünün pik nöqtəsinə çatdı və Rusiya bu dəfə hərbi əməliyyatlarla cavab verdi. İfrat qərbpərəstlər və Gürcüstanın arxasında duran amerikalılar və israillilər hadisələrin belə nəticələnəcəyini hesablamamışdılar. Bu səbəbdən də Rusiyanın hərbi ca-

vabı Qərbi, xüsusilə də Amerikanı 11 sentyabr hadisələri qədər təəccübləndirdi. Onlar belə hesab etmişdilər ki, D.Medvedyevin dövrü hərbi və strateji baxımdan narahat bir dövrdür və ildırım sürətli əməliyyatların və Gürcüstanın müstəqil olması ilə ondan ayrılmış məntəqələrdə Gürcüstan hakimiyyətinin bir daha qaytarmağın məqamıdır» (6). M.Möhtədi isə Rusiyanın məhz belə bir cəld və sərt reaksiya nəticəsində Saakaşvili rejiminə köməyin yetişməsinə macal vermədiyini yazır. O qeyd edir: «...aydındır ki, belə bir şəraitdə Amerika Rusiyanın qarşısında öz hərbi qüvvəsini çıxmağı bacarmazdı və istəməzdi» (20).

Əbülqasım Qasımzadə adlı müəllif Avropa İttifaqının Brüseldə keçirilən iclası çərçivəsində Buş hökumətinin Avropa İttifaqından Rusiya əleyhinə qərar çıxarmasını, təsiredici və sərt addımlar atmağı tələb etdiyini, onu iqtisadi və siyasi baxımdan baykot etməyi təklif etdiyini yazır. Amerika ilə həmfikir olan Britaniyanın baş naziri Avropa ölkələrini, xüsusilə də Almaniyanı və Fransanı inandırmağa çalışdı ki, Avropa İttifaqı Gürcüstan böhranında Rusiyaya münasibətdə Vaşinqtonun siyasi xəttini tutub və Vaşinqton ilə birlikdə Rusiya əleyhinə hərəkət edəcək. Lakin nə Fransa, nə də Almaniya buna razı olmadı və Rusiya rəsmiləri ilə birbaşa danışıqlara getmək və münaqişəni siyasi danışıqlar yolu ilə həll etmək istədilər (12). Doktor S.Şəhabi isə qeyd edir ki, Amerikanın bir məqamı nəzərdən qaçırıb. Bu da Qərb ilə Rusiya arasında əlaqələrin gərginləşməsidir ki, qərbin xeyrinə olmaya bilər. O qeyd edir ki, qərbin dünya məsələlərindən çox Rusiya ilə əməkdaşlığa ehtiyacı var (11). Qasımzadə Ə. göstərir ki, Avropanın informasiya vasitələri Avropa ölkələri ilə Rusiya əməkdaşlığı ilə bağlı olaraq yazırlar: Təkcə Rusiya Avropanı 60% qaz və yanacaqla təmin edir. Rusiya hərtərəfli baykot ediləcəyi halda isti yayın ardınca Avropa xalqını sərt qış gözləyir. Qışa az zaman qaldığı bir vaxtda qazın kəsilməsi Aİ-yə üzv olan dövlətlər üçün faciə olar (12).

«Donya-ye eqtesad» qəzeti İİR prezidenti M.Əhmədinejadın 2008-ci ilin avqust ayında Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrinin dövlət başçıları Şurasının Düşənbə şəhərində keçirilən səkkizinci iclası çərçivəsində Rusiya prezidenti Dmitri Medvedyevlə görüşdüyünü (28 avqust 2008-ci ildə) və Cənubi Osetiyada baş verən son hadisələrdə yadellilərin rolunun olduğunu göstərdiyini qeyd edir (1). İİR prezidenti, ümumiyyətlə, Qafqazda problemlərin qeyri-region dövlətlərinin müdaxiləsi səbəbindən yarandığı və onların müdaxiləsi olmasa region dövlətləri öz problemlərini həll etmək qüdrətində olduqları fikrindədir. Prezident Gürcüstan hadisələrinə gəldikdə isə bildirib ki: «Bizim fikrimizcə əgər Gürcüstan rəsmi dairələri düzgün rəhbərlik etsəydilər və xarici dövlətlərin baş verənlərə müdaxilə etməsinə icazə verməsəydilər məsələ bu dərəcəyə çatmazdı» (10). Jurnalistlərə müsahibə verən prezident Cənubi Osetiya və Abxaziya hadisələrində sionistlərin fəal olduğunu göstərən məlumatlara malik olduqlarını bildirib (10). İran KİV-lərində də bu müharibədə daha çox İsrail dövlətinin udduğu göstərilir və sionist rejimi ittiham edən məlumatlar yer tutur. «Cam-e cəm» qəzetinin internet saytı «əl-Riyad» qəzetindən sitat gətirərək yazır: «Yer kürəsində baş verən bütün müharibələrdə İsrailin izini tapmaq mümkündür. Bu dəfə də yüzlərlə günahsız adamın öldüyü və yaralandığı Cənubi Osetiyada da israillilər Gürcüstana və ayrılmaq tələb edən Osetiyaya silah satmaqla öz sərvətlərini əvvəlkindən daha çox artıra bildilər» (7). Saytda qeyd edilir ki, Gürcüstan və sionist rejimin hərbi sahədə əməkdaşlığı bir neçə ay əvvəl İsrail istehsalı olan pilotsuz təyyarənin Gürcüstan səmalarında bir rus təyyarəsi tərəfindən vurulduğu vaxt üzə çıxdı (7). Bununla yanaşı, saytda İranın İSNA xəbər agentliyinə istinadən xəbər verilir: sionist rejimə məxsus «DEBKA file» xəbər saytında göstərilir ki: «gürcü tankları və piyadaları israilli hərbi mütəxəssislərin əməkdaşlığı ilə Cənubi Osetiyaya daxil ola və beləliklə bu məntəqə üstündə Gürcüstan və Rusiya arasındı toqquşmanı öz xeyrinə başa çatdıra bilərdilər. Həmin saytın məlumatına əsasən

M.Saakaşvili tərəfindən 1000 nəfərə yaxın israilli mütəxəssis 2007-ci ildə gürcü hərbçilərə bir sıra hərbi təlimlər keçməyə məsul edilmişdi». Gürcüstanın bundan başqa sionist rejimdən informasiya sistemləri də aldığı göstərilir. Bundan başqa, Rusiyanın son həftə ərzində İsraildən dəfələrlə Gürcüstana hərbi dəstəyini dayandırmağı tələb etdiyi göstərilir və qeyd edilir ki, İsrailin bu dəstəyi sonda iki dövlət arasında əlaqələrin böhranı ilə başa çatdı. Sionist rejim isə Moskvanın mövqeyinə reaksiya olaraq bildirdi ki, Tiflisi yalnız müdafiə məqsədi ilə himayə edir (18).

İİR-in rəsmiləri müharibənin başlanma səbəbləri haqqında fikir yürütsələr də və ölkə rəhbəri qismən Gürcüstan rəhbərliyini qınasa da İran dövləti müharibə edən tərəflərdən hansını konkret olaraq dəstəklədiyini və kimə haqq verdiyini bildirmir. Bununla əlaqədar olaraq, İranın xarici işlər nazirliyinin mətbuat katibi H.Kəşkavi Qafqazda hərbi münaqişəyə münasibətdə ölkəsinin rəsmi mövqeyini açıqlayarkən İranın mövqeyinin müstəqil və heç bir dövlətə əsasən müəyyənləşmədiyini bildirib. O, həmçinin Gürcüstan böhranında İranın Rusiyanı dəstəkləməsi haqqında yayılan xəbərlərin doğru olmadığını qeyd edib. H.Kəşkavi baş verən hadisələrə xarici müdaxilə ilə böhranın daha da dolaşığa düşdüyünü və həssas region olan Qafqazda sülhün və sabitliyin xeyrinə olmadığını əlavə edib (21). İİR-in xarici işlər naziri M.Mottəki də 17 sentyabr 2008-ci il tarixdə Gürcüstanda gürcü həmkarı ilə görüşündən sonra keçirilən mətbuat konfransında müharibə ilə bağlı konkret mövqe bildirməyib. O qeyd edib ki: «əgər hər hansı məsələ ilə bağlı münasibət bildirilmirsə deməli, bu məsələ ilə bağlı hələ heç bir mövqeyə gəlinməyib» (19).

Rusiya-Gürcüstan müharibəsinin nəticələri Qafqazda və ümumiyyətlə dünya siyasətində yeni balansın yaranması fikrinin meydana çıxmasına səbəb oldu. M.Möhtədi öz məqaləsində xüsusilə qeyd edir ki, Cənubi Osetiyada baş verən hadisələrə Rusiyanın reaksiyası Qafqaz regionunda yeni tarazlığın meydana gəlməsinə səbəb oldu. Onu görməmək, yaxud əvvəlki vəziyyətə dönmək mümkün deyil (20). «Mərkəzi Asiya və Qafqaz» jurnalının baş redaktoru M.Muradi də özünün «Qafqazda müharibə: İran İslam Respublikasının təhlükəsizliyi və mənafeyi» adlı məqaləsində Rusiya-Gürcüstan müharibəsinin köklərini «neytral tərəf» olaraq araşdıraraq bu qənaətə gəlmişdir ki, baş vermiş bu müharibənin Rusiya və Qərb üçün gözlənilməz olmasına baxmayaraq, bir sıra uzaq və yaxın amillər nəticəsində baş vermişdir və özündə region və dünya səviyyəsində diqqətəlayiq bir örnəkdir (16, s.2).

Rusiya və Gürcüstan arasında silahlı toqquşma deyildiyi qədər də gözlənilməz olmadı. Hər iki tərəf buna çoxdan hazırlaşırdı və İran KİV-lərində bunu təsdiq edən məlumatlar öz əksini tapmışdı. 24.08.2008-ci il tarixdə «İran» qəzetində dərc edilmiş məqalədə deyilir: Hər iki ölkənin əvvəldən də qarşıdurması üçün səbəbləri mövcud idi. Lakin 2008-ci ildən digər hadisələr də baş verdi. Rusiyanın Şimali Qafqazda və Qara dəniz sahillərində 2008-ci ilin baharında keçirdiyi genişmiqyaslı «Qafqaz 2008» hərbi manevr onu göstərdi ki, Rusiya Şimali Qafqazda narahatçılığın və Cənubi Qafqazda ehtimal olunan əməliyyatların qarşısını almağa tam hazırdır. Gürcüstanda da bu həmlə üçün tədarük görülmüşdü (4).

Müharibədən əvvəl Gürcüstan və Rusiya arasında qarşılıqlı müharibə xəbərdarlıqları eşidilirdi və tərəflər müharibəyə fəal şəkildə hazırlaşırdılar. Bununla əlaqədar olaraq, İranda çıxan «Cam-e cəm» qəzetinin internet saytında 28 aprel 2008-ci il tarixdə Royter agentliyinə istinadən yazılırdı: «Rusiyalı diplomatlar iddia edirlər ki, cari ilin 21 may tarixində Gürcüstan keçiriləcək parlament seçkilərinədək ondan ayrılmağa çalışan Cənubi Osetiya və Abxaziya məntəqələrində hərbi əməliyyatlar keçirməyə hazırlaşır. Lakin Rusiya xəbərdarlıq edib ki, öz cənub sərhədlərində müharibə istəmədiyinə baxmayaraq, Cənubi Osetiya və Abxaziyada hərbi toqquşmanın baş verəcəyi

halda Moskva hərbi yollara əl atmaqdan çəkinməyəcək» (15). Bunun ardınca Rusiya qəzetlərinə istinadən yazılırdı: «7 mindən çox gürcü hərbi qüvvəsi Abxaziya ilə sərhəddə yerləşdirilib və Gürcüstan ərazisində yaxın xəstəxanalar tam hazırlıq vəziyyətinə gətiriliblər. Bunlar ondan xəbər verir ki, Gürcüstan özünü hərbi əməliyyatlar üçün hazırlayıb». Dərc edilmiş məlumatda həm də 5 may 2008-ci il tarixdə Gürcüstanın müdafiə nazirinin Tiflisin Abxaziyaya hücum və işğal planına malik olduğunu bildirdiyi göstərilir (14). Həmin dövrdə Rusiyanın da Abxaziya ilə sərhəddinə yeni rus qüvvələrinin göndərilməsi və Abxaziyada istehkamların gücləndirilməsi Gürcüstan dövlətinin etirazına səbəb olmuşdu. Fransanın xəbər agentliyinə istinadən qəzet xəbər verir ki: 10 may tarixdə Gürcüstan prezidenti M.Saakaşvili mətbuat konfransında Rusiya ilə müharibə qorxusunun mövcud olduğunu bildirib. O qeyd edib ki, Gürcüstan müharibə istəmir, lakin Abxaziyanın başı üzərində qalmaqal artdığı üçün Rusiya ilə hərbi qarşıdurma mümkündür (2). Rusiya və Gürcüstan arasında bu çaxnaşma hətta BMT Təhlükəsizlik Şurasınadək gedib çıxmışdı. 22.07.2008-ci il tarixdə Gürcüstanın hava sərhədlərinin Rusiya tərəfindən pozulduğu haqda Gürcüstanın şikayətinə baxmaq məqsədilə BMT Təhlükəsizlik Şurasının fövqəladə iclası təşkil edilmişdi. İclasda Rusiya XİN-i ölkənin hava qüvvələri təyyarələrinin gürcü hərbi qüvvələrinin hücumuna mane olmaq məqsədilə Gürcüstan torpaqları olan tanınmamış Cənubi Osetiya üzərində uzun müddətli uçuşlar həyata keçirdiyini etiraf etmişdi. Lakin iclasın sonunda heç bir sənəd qəbul edilməmişdi (22). M.Möhtədi həmçinin müharibə ilə əlaqədar məsələyə baxılarkən TŞ-nın aciz qaldığını qeyd edərək yazır: Rusiya beş daimi üzvündən biri olduğu, o cümlədən haqq və qüvvə də onun tərəfində olduğu üçün Təhlükəsizlik Şürası bir iş görə bilmədi və Gürcüstan Respublikası prezidentinin yeni reallıqla barışmaqdan başqa çarəsi qalmadı (20).

B.Əmirəhmədiyan baş vermiş insan təlafatını və müharibənin Gürcüstana təsirini araşdıraraq yazır: «Bu müharibə Gürcüstanın hücumunun başlanğıcında 15 əsgərin ölməsi, 30 rus sülh mühafizəçisinin yaralanması və 200 mülki şəxsin ölməsinə səbəb oldu. Gürcü ordusunun da təsdiq etdiyi kimi bu əməliyyatda min nəfərə yaxın gürcü ordusunun döyüşçüsü öldü. Toqquşmanın başlanması ilə Cənubi Osetiyadan şimala – Rusiya Federasiyasında yerləşən Şimali Osetiyaya qaçın dalğası axmağa başladı. Otuz minədək Cənubi Osetiya sakini Şimali Osetiyayada sığınacaq tapdı. Xatırlatmaq lazımdır ki, 90-cı illərin əvvəllərində başlamış toqquşmalar zamanından çoxsaylı Cənubi Osetiya qaçqını Şimali Osetiyada yaşayır. Gürcüstanın zəif iqtisadiyyatına daha da təzyiq göstərən iqtisadi və işsizlik problemləri ilə yanaşı ölkənin müxalifətlə də problemləri mövcuddur. Buna görə də hadisələr müxalif qüvvələrə Saakaşvili dövlətinə təzyiqləri artırmaq və onu devirmək üçün birləşməyə bəhanə verir» (4).

Müharibə Gürcüstan üçün uğursuz nəticələndisə də Rusiya üçün göydəndüşmə bir fürsət kimi qiymətləndirilir. M.Muradi müharibənin Rusiyaya təsirini belə izah edir: «Rusiya ələ düşmüş fürsətdən faydalanaraq, o cümlədən keçən on ildə əldə etdiyi daxili stabillik və inkişafına arxalanaraq öz hökumətini ən üstün güc mərkəzi olaraq göstərməyə çalışdı. Buna əsasən Rusiya elə bir səviyyəyə çatmışdır ki, Qərbin siyasi və iqtisadi təzyiqindən qorxmadan özünün regionda maraqlarını müdafiə etdi və bu məqsədinə çatmaq üçün hətta hərbi qüvvəsini istifadə etməkdən də çəkinmədi. Rusiyanın çoxdankı məqsədi idi ki, Gürcüstan ilə müharibədə qətiyyətli hərəkət etməklə böyük güc mərkəzi olaraq postsovet məkanında öz mövqeyini möhkəmlətsin və bununla yanaşı Qərbi də onu bir dünya aktoru kimi qəbul etməyə vadar etsin» (16, s.3-4). Beynəlxalq hüquq üzrə tədqiqatçı doktor Zəhra Noypərəst Cənubi Osetiyada baş verən dəyişikliklərin «soyuq müharibə»dən sonra Avropa İttifaqı və NATO qarşısında yeni mərhələ açdığını yazır. O qeyd edir: «Cürcüstanın hərbi əməliyyatlarına cavab olaraq Rusi-

yanın geniş miqyaslı əks hücumu bu iki təşkilatı birbaşa Kreml ilə üz-üzə qoydu. Kömək məqsədilə, həqiqətdə isə qorxulu atmosfer yaratmaq üçün ABŞ hərbi gəmilərinin Qara dənizdə yerləşdirilməsi, o cümlədən NATO-nun və Avropa İttifaqının Rusiya əleyhinə hədələri Rusiyanın Tiflisin 35-ci km-dək irəli getməsi qərarına heç bir təsir göstərmədi. Sonda bu böhran Abxaziya və Cənubi Osetiya məntəqələrinin öz müstəqilliyini elan etməsi və onların Rusiya hökuməti tərəfindən tanınması ilə başa çatdı. Qərb dövlətlərinin mövcud vəziyyət qarşısında bu müvəqqəti məğlubiyyətini NATO-nun geri çəkilməsi kimi izah etmək olar» (23, s.29).

Hər halda iranlılar bu müharibənin səbəblərini ruslardan fərqli olaraq Rusiyanın öz vətəndaşlarını müdafiə etmək məqsədi kimi deyil böyük siyasi oyunun növbəti gedişi olaraq görürlər. M.Muradi də 2008-ci ilin yayında Rusiya-Gürcüstan müharibəsini Sovet İttifaqı dağıldıqdan sonra başlamış «böyük oyun»un bir hissəsi olaraq iki əsas dəyişikliyə səbəb olduğunu yazır: I – Rusiyanın regionda və dünyada mövqeyinin; və II – regionda siyasi və təhlükəsizlik metodlarının dəyişməsi (16, s.3). M.Muradi həmçinin Rusiya-Gürcüstan müharibəsinin Rusiyanın xeyrinə olan nəticələrinin İranın təhlükəsizliyi üçün mühüm hadisə olduğunu və bir sıra səbəblər üzündən əhəmiyyətli sayıldığını qeyd edir (16, s.9). B.Əmirəhmədian Rusiya tərəfindən aparılan əməliyyatların illər uzunu Gürcüstanın onun əleyhinə davranışına qarşı nifrətinin artdığını və bu cavabın Gürcüstana güclü tənbeh olduğunu yazır (4).

İran İslam Respublikası mütəxəssislərinin Rusiya-Gürcüstan müharibəsinə dair fikirlərini və gəldikləri nəticələri Təbatəbai adına universitetin beynəlxalq əlaqələr üzrə mütəxəssisi doktor Dehqaninin sözləri ilə ümumiləşdirmək olar. Dehqani bildirir ki, mütəxəsisslər 2008-ci ilin avqust ayında Rusiya ilə Gürcüstan arasında baş vermiş beş günlük müharibənin Cənubi Qafqazda dəyişikliklər üçün əsaslı dönüş olduğu qənaətindədirlər. Müharibənin nəticələri isə region ölkələrini öz təhlükəsizlik siyasətlərinə yenidən baxmağa vadar etdi. Bu müharibə həmçinin qüdrətli dövlətlərin Qafqazda bir-birləri ilə əlaqələrinə də təsir etdi və Rusiyanın qərb ölkələri, xüsusilə də Amerika ilə əlaqələrində dəyişikliklərə səbəb oldu. Ümumiyyətlə isə Cənubi Osetiya müharibəsi əslində Rusiyanın Amerika ilə müharibəsi və bu iki qüdrətli dövlət arasında rəqabət idi (3).

## *ƏDƏBİYYAT*

۱. از سوی احمدی‌نژاد ارایه شد: پیشنهادهای ایران برای فعالسازی نقش سازمان شانقای. روزنامه"دنياي اقتصاد"، 9 شهريور 1387
۲. افزایش تنش‌ها بین روسیه و گرجستان. 21 اردیبهشت 1387 - ساعت 00:24
[http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100938032697]
۳. امنيت در قفقاز جنوبي [http://www.irtt.ir/articles/regional_studies/post_492.php]
۶. امیراحمدیان بهرام. باتلاقی برای بلند پروازان قفقاز (بخش دوم و پایانی). روزنامه "ایران"، ۲/۶/۱۳۸۷
۵. امیراحمدیان بهرام. ریشه ها و چشم انداز درگیری گرجستان و روسیه. روزنامه "ایران"، ۲/۶/۱۳۸۷
۴. امیراحمدیان بهرام. کمربندی به نام قفقاز منطقه حائل بین غرب و روسیه (بخش اول). روزنامه "اعتماد"، ۱۶ شهریور ۱۳۸۷
۷. دلالان صهيونيست اسلحه، برنده اصلي جنگ گرجستان و روسيه. 21 مرداد 1387 - ساعت 17:18
[http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100946145526]
۸. روسیه وارد جنگ با گرجستان شد
[http://www.farsnews.net/newstext.php?nn=8705180364]
۹. رئيس جمهور روسيه: كشتار هموطنان روس در اوستياي جنوبي بي‌پاسخ نخواهد بود

[http://www.farsnews.net/newstext.php?nn=8705160440]

۱۰. رئيس جمهوري در نشست «دوشنبه» ارائه كرد. روزنامه "دنياي اقتصاد"، 9 شهريور 1387

۱۱. شهابي سيفالرضا. چرا گرجستان به اوستيا حمله كرد؟ روزنامه " اطلاعات"، 12 شهريور 1387

۱۲. قاسمزاده ابوالقاسم. بحران گرجستان مشكل روز اتحاديه اروپا. " اطلاعات"، 12 شهريور 1387

۱۳. قاسمزاده ابوالقاسم. جنجال خبري از هشدار پوتين. روزنامه " اطلاعات"، 10 شهريور 1387

۱۶. گرجستان آماده درگيري نظامي در آبخازي. 16 ارديبهشت 1387 - ساعت 18:56 [http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100937683696]

۱۵. گرجستان و روسيه در مسير تقابل. 07 ارديبهشت 1387 - ساعت 22:58 [http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100936921709]

۱۴. مرادی منوچهر. جنگ در قفقاز: امنیت و منافع جمهوری اسلامی ایران// فصلنامه آسیا مرکزی و قفقاز. پاییز ۱۳۸۷، شماره ۶۳ ، ص.۱۴-۱.

۱۷. مركز "اوستياي جنوبي " سقوط كرد [http://www.farsnews.net/newstext.php?nn=8705180711]

۱۸. منابع اطلاعاتي رژيم صهيونيستي: اسراييل حمله گرجستان به اوستيا را تدارك ديد. 20 مرداد 1387 - ساعت 16:21 [http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100946056303]

۱۹. متکی در جمع خبرنگاران: کار ایران میانجگاری میان تفلیس و مسکو نیست. ایران همه خوانب بحران در منطقه قفقاز را بررسی میکند. [http://www.isna.ir/ISNA/NewsView.aspx?ID=News-1200517]

۲۰. موضع ایران در تحولات قفقاز مستقل است. 11 شهريور 1387 - ساعت 11:53 [http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100947940901]

۲۱. مهتدی محمدعلي. معادله جدید در قفقاز. روزنامه "اطلاعات"، ۲۶ مرداد ۱۳۸۷

۲۲. نشست بيiنتيجه شوراي امنيت درمورد بحران روسيه ـ گرجستان. 01 مرداد 1387 - ساعت 20:13 [http://www.jamejamonline.ir/newstext.aspx?newsnum=100944428369]

۲۳. نوع پرست زهرا. بحران گرجستان: فصل نوین در روابط روسیه و غرب // فصلنامه آسیا مرکزی و قفقاز. . پاییز ۱۳۸۷، شماره ۶۳ ، ص.۶۴-۲۹.

**РУИНТАН КЯМАЛЯ**
***диссертант Бакинского Славянского Университета***

## РОССИЙСКО-ГРУЗИНСКАЯ ВОЙНА ГЛАЗАМИ ИРАНСКИХ СПЕЦИАЛИСТОВ И В СМИ ИРАНА

В статье рассматриваются взгляды и выводы иранских специалистов напечатанные в разных источниках, а также в СМИ Иранской Исламской Республики о Российско-Грузинской войне 08-12 августа 2008 года. Иранские специалисты, как и большинство исследователей, войну считают противостоянием между Западом, точнее Америкой и Россией. Они утверждают о росте влияния России не только в Кавказском регионе, но и в мировой политике после «пятидневной войны».

**KAMALA RUINTAN**
***Postgraduate of the Baku Slavic University***

## RUSSIAN-GEORGIAN WAR WITH EYES IRANIAN SPECIALISTS AND IN MASS-MEDIA OF IRAN

In article are considered the glances and findings of Iranian specialists typed in miscellaneous source, as well as in mass-media of Islamic Republic of Iran about Russian-Georgian war of the

August 08-12 2008. The Iranian specialists, either as majority of the researchers, this war consider the opposition between West, more exactly between America and Russia. They confirm about growing of the influence to Russia in Caucasian region not only, but also in world politician after "five-day war".

***Rəyçilər: t.e.n.A.A.Əhmədov, t.e.d.M.C.Qasımlı.***

***BSU-nun «Ölkəşünaslıq» ETL-nin 10 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 10).***